# KOB könüllüləri işlə təmin edilib

Kiçik və Orta Biznesin İnkişafı Agentliyində (KOBİA) könüllülük fəaliyyətini uğurla başa vurmuş daha 5 "KOB könüllüsü" müxtəlif sahələrdə əmək fəaliyyətinə başlayıb.

"KOB Dostu"nun Qəbələ-Oğuz ofisində fəaliyyət göstərən könüllülər - Rəfayət Bayramova, Aysel Calalova, Teymur Alışanov və Elvin Məmmədov müvafiq olaraq Qəbələdə "ASAN xidmət" Mərkəzində, Gənclər Fondu yanında Gənclərin İnkişaf və Karyera Mərkəzində və dövlət aqrar inkişaf mərkəzində işlə təmin ediliblər.

**"Qəbələ"**

# Küveyt mətbuatında Azərbaycanın turizm imkanları barədə məqalə dərc olunub

Küveytdə ingilis dilində gündəlik nəşr olunan "Arabi Times" qəzetinin 1 dekabr tarixli nüsxəsində "Bu qış fəslində təbii gözəlliyi, tarixi və qədim mədəniyyəti ilə zəngin Azərbaycanın ən gözəl yerlərini özünüz sınayın" sərlövhəli məqalə dərc olunub.

Məqalədə Qafqaz sıra dağlarını bir qış cənnətinə çevirən qış mövsümünün Azərbaycanda çox füsunkar və məftunedici olduğu, təcrübəli və yeni xizək sürənlərin Qəbələ şəhərindəki "Tufandağ" İstirahət Mərkəzində yamaclara meydan oxuya biləcəyi qeyd edilib.

**"Qəbələ"**

*Sadə peşə adamları*

# Hörmət qazanıb



Peşəsinin bilicisi olan yaxşı sənətkar el içində də hörmət qazanır. Belə sənətkarlardan biri də Şakir Alıbəyovdur. Yaşı 60-ı ötmüş Şakir usta avtomobil təkəri təmirçisidir. Ömrünün üçdə iki hissəsini həsr etdiyi sadə peşəsinə ürəkdən bağlıdır Şakir usta. Vaxtilə 141 nömrəli Qəbələ Texniki Peşə Məktəbində dülgər peşəsinə yiyələnən Şakir sonralar könlünün çəkdiyi sahənin- avtomobil təkəri təmirinin sirlərini öyrəndi. Ona bu sənəti sevdirən və öyrədən mərhum Kamal İbrahimov da peşəsinin əsil ustası idi.

İki il Kamal ustanın yanında çalışan Şakir sonra müstəqil işə başlamış və qısa müddətdə bu sahədə peşəkara çevrilmişdir.

Hazırda Qəbələ şəhərində Qaraçay adlanan sahədəki emalatxanasında çalışan Şakir ustaya müraciət edən avtomobil sahiblərinin təkər nasazlığı üzündən yolda qalmaq qorxusu yoxdur. Şakir ustanı müştərilərə sevdirən təkcə peşəkar olması deyil, eyni zamanda təvazökarlığı, sadəliyi və gülərüzlüyüdür.

**Emin BARATOĞLU,**
**AJB-nin üzvü, "Qəbələ"-nin müxbir postunun rəhbəri.**

# Kitabları sevdirə bilib

Sahibə Xasməmmədova 1979-cu ildən Mürvət Bilalov adına Aydınqışlaq kənd tam orta məktəbində kitabxanaçı işləyir. Ömrünün 40 ilini sevdiyi peşəyə həsr etmiş Sahibə xanım kitabları şagirdlərə sevdirmək üçün ardıcıl tədbirlər keçirir. İnternet dövründə bu iş nə qədər çətin olsa da Sahibə xanım geri çəkilmir, istədiyinə nail olur. Məktəb kitabxanası onun sayəsində daim oxucularla doludur.

Sahibə xanım qeyd edir ki, tədris edilən fənlərin daha yaxşı mənimsənilməsi, biliklərin möhkəmlənməsi üçün dərsliklərdən əlavə kitabların oxiünması vacib şərtdir. Buna görə də təcrübəli kitabxanaçı şagirdlərə hər bır fənnə, hər bir mövzuya aid əlavə ədəbiyyat seçməkdə yaxından kömək edir.

Kitabxanada müntəzəm olaraq yeni kitabların təqdimatı, kitab müzakirələri, oxucu konfransları, bilik yarışları və sair tədbirlər keçirilir.

**Rəna XASMƏMMƏDOVA,**
**Aydınqışlaq kənd diyarşünaslıq klubunun müdiri.**

# Yeni il şənliyi ərəfəsində yanğın təhlükəsizliyinə əməl edilməlidir

Yeni il şənliklərində və insanların kütləvi toplaşdıqları digər yerlərdə tədbirlər keçirilən zaman:

-ən azı iki ehtiyat çıxış qapısı qoyulan, tikinti norma və qaydalarına tam cavab verən, 2 mərtəbədən yuxarı olmayan və yanmayan arakəsmələri olan binalarda tədbir keçirilməsinə icazə verilir;

-bəzəkli şam ağacı qurularkən yerə möhkəm bərkidilməli və elə qurulmalıdır ki, ağacın budaqları divara, tavana dəyməsin;

-otaqlarda işıqlandırma sistemi olmadıqda tədbir yalnız gündüzlər keçirilməlidir;

-şam ağacının bəzədilməsində istifadə olunan lampalar ardıcıl qoşulmalı və bu zaman gərginlik 12 voltdan, cərəyan 25 vatdan artıq olmamalıdır;

-əgər elektrik təsərrüfatında nasazlıq yaranarsa ( naqillərin qızması, lampaların yanıb-sönməsi, qığılcım çıxması və s.), cərəyan dərhal ümumi dövriyyədən ayrılmalıdır.

**Qadağandır:**

-otaqların pəncərələrində dəmir barmaqlıqlar olduqda tədbirlərin keçirilməsi;

-atəşfəşanlıq məqsədilə partlayıcılardan, güclü projektorlardan, şamlardan, fişənglərdən və digər yanğın təhlükəli işıqlandırıcı maddələrdən istifadə edilməsi;

-şam ağacının bəzədilməsi zamanı selloiddən hazırlanmış oyuncaqlardan, o cümlədən odadavamlı məhlul hopdurulmayan cuna pambıqdan istifadə olunması;

-uşaqlara tezalışan materiallardan tikilən kostyumların geyindirilməsi;

-tədbir zamanı qaynaq, rəngləmə və digər yanğıntörədici partlayış təhlükəli işlərin görülməsi;

-oturacaqların ara məsafəsinin azaldılması, əlavə stul və kreslolar qoyaraq cərgəarası keçidlərin bağlanması;

-tamaşa vaxtı zalın işığının tam söndürülməsi;

-nəzərdə tutulduğundan artıq insanların zala buraxılması;

-yanğın təhlükəsizliyinə cavabdeh olan növbətçilərin və yanğın təhlükəsizliyi orqanı əməkdaşlarının olmadığı zaman tədbirlərin keçirilməsi.

**Şimal-Qərb Regional Dövlət Yanğın Nəzarəti İdarəsi**

*Kənd təsərrüfatı xəbərləri*

# Fındıq bağlarından bol məhsul toplanıb

Ənənəvi sahələrdən olan fındıqçılığın inkişaf etdirilməsi rayonumuzun kənd təsərrüfatı üçün də prioritet istiqamətlərdən biri sayılır. Dövlətimizin başçısının bu sahənin daha da inkişaf etdirilməsi ilə bağlı verdiyi tapşırıq və göstərişlərin icrasını təmin etmək məqsədilə son illər Qəbələ rayonunda da bu istiqamətdə davamlı iş aparılır. Görülmüş tədbirlər öz müsbət nəticəsini göstərməkdədir. Belə ki, bu il rayonun fındıq bağlarından 9 min 310 ton məhsul tədarük olunub. Fındıq istehsalı ötən illə müqayisədə 110 ton artıb.



Bu barədə müxbirimizə Qəbələ Dövlət Aqrar İnkişaf Mərkəzinin bitkiçilik sektorunun müdiri Elimdar Şərifov məlumat verib.

Qurum rəsmisi bildirib ki, son illər rayon ərazisində 2 min 137 hektar sahədə yeni fındıq bağları salınaraq, mövcud bağların sahəsi 6 min 889 hektara çatdırılıb. Bu bağların 4 min 827 hektarı barverəndir. Təkcə bu ilin yazında rayon ərazisində 237 hektarda yeni fındıq bağları salınıb. İlin sonunadək daha 101 hektarda yeni bağların salınması nəzərdə tutulur.

**"Qəbələ"**

# Payızlıq dənlilərin əkini başa çatıb

Rayonun təsərrüfatlarında gələn ilin məhsulu üçün payızlıq dənlilərin əkini başa çatıb.

Kampaniya dövründə fermerlər 19 min 450 hektar sahəyə toxum səpiblər. Taxıl əkinlərinin 15 min 50 hektarını buğda, 4 min 400 hektarını arpa sahələri təşkil edir.

Fermerlərimiz builki mövsümdə 20 min 100 hektar taxıl sahəsindən 66 min 824 ton məhsul tədarük ediblər. Hər hektarın orta məhsuldarlığı 33,2 sentner olub.

**"Qəbələ"**



# İntensiv tipli yeni tut bağı salınır

Çindən ölkəmizə gətirilən 1 milyon ədəd tut tingindən intensiv tipli yeni bağların salınması məqsədilə 10 mini Qəbələ rayonuna göndərilib. Tinglər əsasən, Kənd Təsərrüfatı Nazirliyinin Meyvəçilik və Çayçılıq Elmi-Tədqiqat İnstitutunun Qəbələ Dayaq Məntəqəsinin ərazisində əkilir.



Qəbələ Dövlət Aqrar İnkişaf Mərkəzinin bitkiçilik sektorunun müdiri Elimdar Şərifovun müxbirimizə verdiyi məlumata görə indiyədək mindən çox ting əkilib və bu istiqamətdə işlər davam etdirilir.

Bundan əlavə, rayonun bir sıra kəndlərində Ekologiya və Təbii Sərvətlər Nazirliyi tərəfindən ayrılmış 1000 ədəd yerli tut tinglərinin də əkilməsi nəzərdə tutulub.

Ümumiyyətlə, baramaçılığın yem bazasının möhkəmləndirilməsi məqsədilə son 3 ildə rayonda 110 min ədəd Çindən gətirilən calaq olunmuş tut tingləri əkilib.

**"Qəbələ"**

# Səyyar gübrə satışı davam etdiriləcək

Sentyabr ayından etibarən "Aqrolizinq" ASC tərəfindən rayonumuzda mövsümi mineral gübrələrin güzəştli şərtlərlə səyyar satışı keçirilir.

Səyyar gübrə satışının mövsümün sonuna kimi davam etdirilməsi nəzərdə tutulub.

Güzəştli qiymətlərlə səyyar gübrə satışı qaydalarında və qiymətlərdə dəyişiklik yoxdur. Vətəndaşlar tələb olunan sənədləri təqdim etməklə 70 faiz güzəştdən yararlanaraq mineral gübrəni əldə edə bilərlər.



**"Qəbələ"**